# Sizlərə tərk etdiyim (haqqında əmr və qadağa gəlməyən) şeylərdə məni rahat buraxın (artıq suallar verməyin). Sizdən öncəkilər verdikləri sual və peyğəmbərlərinə müxalif olmaları səbəbi ilə həlak oldular

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Sizlərə tərk etdiyim (haqqında əmr və qadağa gəlməyən) şeylərdə məni rahat buraxın (artıq suallar verməyin). Sizdən öncəkilər verdikləri sual və peyğəmbərlərinə müxalif olmaları səbəbi ilə həlak oldular, buna görə də sizə bir şeyi qadağan etdikdə ondan uzaq durun, bir şeyi əmr etdikdə onu bacardığınız qədər yerinə yetirin".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu ki, şəriət hökmləri üç qismə bölünür: Haqqında susulmuş hökmlər, qadağalar və əmrlər. Birinciyə gəlincə: o şəriətin haqqında susduğu şeydir: belə ki, onun haqqında hökm yoxdur və əşyalarda əsl olan onların vacib olmamasıdır; Onun (Allahın salavatı və salamı onun üzərinə olsun) zamnında baş verməyən bir şey haqqında, həmin şeyin vacib və ya haram edilməsi hökmü nazil olmaması üçün soruşmaqdan çəkinmək gərəkirdi, çünki Allah bu şeyləri bəndələrinə olan rəhmətindən dolayı tərk etmişdir. Lakin, onun (Allahın salavatı və salamı onun üzərinə olsun) vəfatından sonra əgər sual din məsələsində ehtiyac duyulan şeylər üçün fətva almaq və ya öyrənmək üçündürsə, bu icazəlidir və hətta əmr edilmişdir. Lakin, inad və çətinləşdirmə formasında olarsa, bu hədisdə qadağan edilən sualdan qəsd elə budur. Çünki, bu İsrail övladlarının başına gələnin bənzərinə gətirib çıxara bilər. Belə ki, onlara bir inək kəsmək əmr edildi və əgər onlar hər hansı bir inək kəssəydilər, buna əməl etmiş olardılar, lakin onlar bu məsələni (əlavə suallar verməklə) çətinləşdirdilər və onlar üçün (hökmlər) çətinləşdirildi. İkinci: Qadağalar; onlar o əməllərdir ki: onları tərk edən mükafatlandırılar və onları işləyən isə cəzalandırılar, buna görə də onların hamısından çəkinmək vacibdir. Üçüncü: Əmrlər; onlar o əməllərdir ki: onu edən mükafatlandırılar, onu tərk edən isə cəzalandırılar, ona görə də bacarıldığı qədər bu əməllər edilməlidir.